21 saylı əlb

**Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının**
**Rəyasət Heyətinin sədri Anar Bağırova**

**Bakı şəhəri, Nizami rayonu, Nəsimi küç.33, ev 21 ünvanında**
**yaşayan Abdullayeva Səbinə Abdulla qızı tərəfindən**

# MİNNƏTDARLIQ MƏKTUBU

**Hörmətli Sədr,**

Vəkillər kollegiyasının vəkili Sanılı Rüfət Tahir oğlunun xidməti fəaliyyəti haqqında səmimi fikirlərimi sizinlə bölüşməyi özümə borc bildim. 3 ilə yaxındır ki, müxtəlif vaxtlarda mənə edilən haqsızlıqlara qarşı Nəsimi rayon məhkəməsində, Bakı şəhər Apellyasiya məhkəməsində mübarizə aparıram. Bu çətin proses zamanı vəkil olaraq seçdiyim Rüfət müəllim öz savadı, peşəkarlığı və iş təcrübəsi ilə mənim böyük dəstəkçim oldu, hüquqi məsələlərimi məharətlə idarə etdi. Onun sayəsində ədalət uğrunda mübarizəm uğurla davam etməkdədir. Onun zəhmətini dərindən qiymətləndirir, sədaqətinə və mənə hiss etdirdiyi inam və güvən duyğusuna görə ona səmimi minnətdarlığımı bildirirəm. Xidmətlərini hüquqi yardıma ehtiyacı olan şəxslərə məmnuniyyətlə tövsiyə edirəm. Ölkəmizdə vətəndaş hüquqlarını müdafiə edən bu cür savadlı və peşəkar vəkillərin olması qürurverici bir haldır.

Rəhbərlik etdiyiniz vəkillər kollegiyasında bu cür savadlı, vicdanlı, vətəndaşların məmnuniyyətini qazanan vəkillərin fəaliyyətinə şərait yaratdığınız üçün Sizə də öz təşəkkürlərimi çatdırıram.

**29.11.2024** **Abdullayeva Səbinə**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4698
«06» 12 2024